# “XX əsrin faciəsi - Xocalı soyqırımı” adlı tammətnli elektron nəşr yenilənmişdir

1992-ci il fevral ayının 26-na keçən gecə erməni silahlı birləşmələrinin havadarlarının köməyi ilə həyata keçirdikləri Xocalı soyqırımının törədilməsindən 20 il ötür. Prezident Kitabxanasında Azərbaycan, ingilis və rus dillərində hazırlanmış **“XX əsrin faciəsi – Xocalı soyqırımı”** adlı tammətnli elektron nəşr Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə təsdiqlənmiş tədbirlər planına uyğun olaraq faciənin ildönümü ərəfəsində yenilənmişdir.

Elektron nəşrə daxil olan materiallar 6 bölmədə qruplaşdırılmışdır. **“Xocalı soyqırımı”** adlanan bölmədə Dağlıq Qarabağ münaqişəsinin qısa tarixçəsi, Xocalı soyqırımının miqyası, istintaq materialları, zərərçəkənlərin ifadələri, tibbi ekspertiza rəyləri, Xocalı şəhidlərinin siyahısı, **“Rəsmi materiallar”** bölməsində isə Xocalı soyqırımının tanıdılması istiqamətində dövlət səviyyəsində qəbul edilən qərarlar, beynəlxalq təşkilatlara edilən müraciətlər toplanılmışdır. **“Xocalı soyqırımının əks-sədası”** bölməsində isə Xocalı soyqırımı ilə bağlı indiyədək yerli və xarici mətbuatda dərc olunan və kütləvi informasiya vasitələrində əksini tapan seçmə materiallar illər üzrə qruplaşdırılaraq yerləşdirilmişdir.

İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi və Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə **“Xocalıya ədalət”** devizi altında beynəlxalq kampaniya çərçivəsində həyata keçirilən tədbirlər haqqında materiallar ayrıca bölmə şəklində istifadəçilərin diqqətinə çatdırılır.

Son vaxtlar Xocalı soyqırımının beynəlxalq aləmdə  tanınması istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini verməkdədir. Artıq Meksika və  Pakistan senatları, İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqı, ABŞ-ın Massaçusets, Texas ştatları və bir sıra şəhərləri Xocalı soyqırımını bəşəriyyətə qarşı törədilən cinayət kimi tanımışlar. Bu qəbildən olan materiallar elektron nəşrin **“Xocalı soyqırımının tanınması”** adlı yeni bölməsində verilmişdir.

**“Elekrton resurslar”** bölməsində bu faciədən bəhs edən Azərbaycan, rus və ingilis dillərində kitabların elektron versiyaları yerləşdirilmişdir. Bu bölmədə istifadəçilər Xocalı soyqırımı ilə bağlı digər faydalı saytlara yönəldilir.